


# Güney Azərbaycanda Milli Hökumət dönəmində nələr yaşandı?

Məhəmməd Rəhmanifər

(əvvəli ötən sayımızda)

***Əslində əkinçilərin torpaq sahibi olması təşəbbüsü Şeyx Məhəmməd Xiyabaninin yaratdığı Azərbaycan Demokrat Firqəsinə məxsusdur. Xiyabani bu işi Güney Azərbaycanda 1920-ci ildə etməyə başlamış, lakin onun qurduğu qısamüddətli muxtar hökumət devrildikdən sonra həmin torpaqlar əkinçilərdən geri alınmışdı. Azərbaycan Milli Hökumətinin bir illik fəaliyyəti dövründə Azərbaycan Demokrat Firqəsi ümumilikdə 257 066 kvadrat kilometr kənd təsərrüfatı sahəsini pulsuz olaraq torpaqsız əkinçilərə paylamış və 209 096 nəfər əkinçini kənd təsərrüfatına yararlı torpaqlara sahib etmişdi.***

## İş və işçilər

Azərbaycan Milli Hökuməti işə başladığında mərkəzi hökumətin Güney Azərbaycana qarşı apardığı siyasətlərin nəticəsində işsizliyin faizi olduqca yüksək səviyyədə idi. Bunun aradan qaldırılması və işçilərin vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Milli Hökumətinin vədlərindən biri idi. Azərbaycan Milli Hökuməti bu vədi yerinə yetirmək üçün əlindən gələni etdi. Bəzi səbəblərdən bağlanan fabrik və sexlər dövlətin dəstəyi ilə yenidən fəaliyyətə başladı. Azərbaycan Milli Hökuməti, milli istehsalı inkişaf etdirmək və zavod və emalatxanaları dəstəkləmək üçün Azərbaycanda istehsal olunan məhsulların idxalına qadağa qoymuşdu.

Əmək qanununun qəbulu, illik ödənişli məzuniyyət, minimum əmək haqqının müəyyən edilməsi, 8 saatlıq iş günü qanunu, iş vaxtından artıq ödənişlər haqqında qanun, 14 yaşınadək oğlan və qızların işə götürülməsinə qadağa, işçilərin icbari sığortası Azərbaycan Milli Hökuməti tərəfindən qəbul edilən qərarlar sırasındadır.

*Azərbaycan Milli Hökuməti işə başladığında mərkəzi hökumətin Güney Azərbaycana qarşı apardığı siyasətlərin nəticəsində işsizliyin faizi olduqca yüksək səviyyədə idi. Bunun aradan qaldırılması və işçilərin vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Milli Hökumətinin vədlərindən biri idi. Azərbaycan Milli Hökuməti bu vədi yerinə yetirmək üçün əlindən gələni etdi. Bəzi səbəblərdən bağlanan fabrik və sexlər dövlətin dəstəyi ilə yenidən fəaliyyətə başladı. Azərbaycan Milli Hökuməti, milli istehsalı inkişaf etdirmək və zavod və emalatxanaları dəstəkləmək üçün Azərbaycanda istehsal olunan məhsulların idxalına qadağa qoymuşdu...*

## Qadınlar və uşaqlar

Azərbaycan Milli Hökuməti qadın və uşaq hüquqlarına böyük əhəmiyyət vermişdi. Nəinki Şərqdə və Yaxın Şərqdə, hətta Qərb dünyasının bir çox ölkələrində qadınların hələ də səsvermə hüququ olmadığı halda, Güney Azərbaycan qadınları Azərbaycan Milli Hökuməti dövründə bu hüququ əldə etməyi bacarmışdı. Qadınların dövlət idarələrində, fabriklərdə, xəstəxanalarda və məktəblərdə işləmək imkanı da var idi. Bundan əlavə, Azərbaycan Milli Ordusunda 300-dən çox qadın işə götürülmüşdü. Bu hadisələr İranın digər bölgələrində qadın hüquqları ilə məşğul olanların da diqqətini çəkmişdi. Hətta İran Qadın Hüquqları Dərnəyi Pişəvəriyə teleqram göndərərək, bu əməllərinə görə onu təbrik etmişdi.



1945-ci il dekabrın 26-da Azərbaycan Milli Hökumətinin qurulmasından cəmi bir neçə gün sonra Güney Azərbaycanda "Azərbaycan Qadınlar Klubu" yaradıldı. Bu təşkilat qısa zamanda Güney Azərbaycanın bir çox şəhərlərində öz filiallarını açıb, qadınları maarifləndirmək üçün ardıcıl konfranslar təşkil etmişdi. Azərbaycanda qadın dərnəklərinin uzun tarixi var idi, lakin Rza şah hakimiyyətə gəldikdən sonra onların hamısı bağlandı. Azərbaycan Milli Hökuməti dövründə Azərbaycan qadınları bir daha mütəşəkkil şəkildə öz hüquq və azadlıqlarını müdafiə etmək imkanı əldə etdilər. Güney Azərbaycan qadınları Azərbaycan Milli Hökumətinin qurulmasında və davam etdirilməsində fəal rol oynamış, hətta bəziləri bu yolda həyatını itirmiş, Azərbaycan müqavimətinin qəhrəmanlarına çevrilmişdi.

Cəmiyyətin ən həssas təbəqəsi olan uşaqlar da mərkəzi hökumətin Güney Azərbaycanla bağlı siyasətindən layiqli paylarını almışdılar. Azərbaycan Milli Hökuməti yarandığı ilk günlərdə qanunlar qəbul etməklə uşaqların, xüsusən də yetimlərin vəziyyətini yaxşılaşdırmağa çalışırdı. Bu barədə Azərbaycan Milli Hökumətinin 1946-cı il yanvarın 6-da qərarı diqqət çəkir. Qanuna uyğun olaraq, 3-14 yaş arası bütün yetim uşaqlar Milli Hökumətin açdığı təhsil mərkəzlərinə aparılmalı, orada təhsil almalı və sığınacaqla təmin olmalı idilər. Səhiyyə Nazirliyinə üç yaşınadək uşaqlara qulluq üçün xüsusi uşaq mərkəzlərinin açılması təklif olunmuşdu.

*Cəmiyyətin ən həssas təbəqəsi olan uşaqlar da mərkəzi hökumətin Güney Azərbaycanla bağlı siyasətindən layiqli paylarını almışdılar. Azərbaycan Milli Hökuməti yarandığı ilk günlərdə qanunlar qəbul etməklə uşaqların, xüsusən də yetimlərin vəziyyətini yaxşılaşdırmağa çalışırdı. Bu barədə Azərbaycan Milli Hökumətinin 1946-cı il yanvarın 6-da qərarı diqqət çəkir. Qanuna uyğun olaraq, 3-14 yaş arası bütün yetim uşaqlar Milli Hökumətin açdığı təhsil mərkəzlərinə aparılmalı, orada təhsil almalı və sığınacaqla təmin olmalı idilər. Səhiyyə Nazirliyinə üç yaşınadək uşaqlara qulluq üçün xüsusi uşaq mərkəzlərinin açılması təklif olunmuşdu...*

***Hətta Demokrat Firqəsinin əleyhdarları, düşmənləri və təbii ki, bitərəf müşahidəçilər də etiraf edirlər ki, bu hakimiyyətin bir il ərzində Güney Azərbaycan xalqına göstərdiyi xidmətləri və gördüyü işləri, Pəhləvi hökuməti son 20 ildə Azərbaycan üçün görməmişdi və daha doğrusu görmək istəməmişdi. Uzun illərdən sonra Güney Azərbaycan türklərinin özlərinə məxsus olan və onlara işləyən hökuməti var idi və bundan yüksək xoşbəxtlik yoxdur. Amma unutmayaq ki, Güney Azərbaycanda milli hökumətin bir illik dövrü Araz çayının hər iki tərəfindəki azərbaycanlılar arasında yaxınlıq, empatiya və münasibətlərin möhkəmlənməsi dövrü idi.***